# Dördüncü regional inkişaf proqramı tərəqqiyə öz töhfəsini verəcək

## Görülən işlər əhalinin işıqlı gələcəyə olan inamını daha da möhkəmləndirir

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən siyasətin əsas hədəfi dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin, əmin-amanlığın təmin edilməsidir. Bu hədəfə çatmaq üçün atılan addımlardan biri də dövlət başçısının imzaladığı sərəncamlarla təsdiq olunan, yüksək səviyyədə icra olunan 3 regional inkişaf proqramı və hazırda icrası davam etdirilən "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır.**





Cari il fevralın 3-də bu Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Konfransda çıxış edən Prezident İlham Əliyev 2003-cü ildən bu günə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatının 3,4 dəfə artdığını, bunun dünyada rekord göstərici olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, ötən 16 il ərzində sənaye istehsalı 2,7, kənd təsərrüfatı 2, xarici ticarət dövriyyəsi 6,4, ixrac 7,6, o cümlədən qeyri-neft ixracı 5,2, valyuta ehtiyatlarımız isə 27 dəfə artıb. Təkcə 2019-cu ildə iqtisadiyyat 2,2, qeyri-neft sektoru 3,5, sənaye istehsalı 1,5, qeyri-neft sənayesi 14 faizdən çox artıb. Yaxşı nəticələrin əldə olunmasında keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb. Bununla yanaşı, vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi qeyri-neft sənayesində də özünü büruzə verib.

Yeni iş yerlərinin yaradılmasının daimi proses olmasına diqqət çəkən Prezident İlham Əliyev keçən il 98 min yeni iş yerinin yaradıldığını söyləyib. Bildirib ki, iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Onun sözlərinə görə, özəl sektor iş yerlərini yaradan əsas sektor olaraq öz sözünü deyir və deməlidir. Azərbaycanın həm xarici, həm də daxili investorlar üçün çox cəlbedici məkan olduğunu dilə gətirən dövlət başçısı vurğulayıb ki, 2019-cu ildə ölkə iqtisadiyyatına 13,5 milyard dollar sərmayə qoyulub. Ölkə rəhbəri 2003-cü ildə valyuta ehtiyatlarımızın 1,8 milyard dollar olduğunu xatırladaraq bildirib ki, hazırda bu rəqəm 52 milyard dollar təşkil edir: "Bu, böyük bir göstəricidir. Yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşmüşdür. Bu da onu göstərir ki, neftdən əldə edilmiş gəlirlər düşünülmüş şəkildə və ədalətli bölünmüşdür. Biz bu gəlirlərdən istifadə edərək ölkəmizin bütün əsas infrastruktur problemlərinin böyük hissəsini həll etdik, eyni zamanda, vətəndaşların rifah halını yaxşılaşdırdıq. Son 16 ildə orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artmışdır, 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilmişdir. Yəni, bu böyük sosial proqramlar böyük vəsait tələb edir. Təsəvvür edin, 300 min insan üçün evlər, mənzillər tikilib. Biz bu illər ərzində təxminən Sumqayıt, yaxud Gəncə boyda şəhər tikmişik. Bunu etmək üçün həm siyasi iradə, düşünülmüş siyasət, eyni zamanda, imkanlar olmalı idi".

**Millət vəkili Nəsib Məhəməliyev** mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, indiyə qədər icra edilən 3 regional inkişaf proqramı nəticəsində ölkənin bütün regionlarını əhatə etməklə, 3500-dən yuxarı yeni məktəb binası, 700-dən artıq xəstəxana, uşaq bağçası, mədəniyyət obyektləri, idman olimpiya kompleksləri, inzibati binalar, 16000 kilometrdən çox yollar tikilib. Bununla bərabər, ölkənin bütün şəhər, qəsəbə və kəndləri abadlaşdırılıb, yüzminlərlə yaşayış binasının dam örtükləri dəyişdirilib, yeni ali məktəb binaları, korpusları tikilib, mövcudları istisnasız olaraq əsaslı təmir olunub: "Hər bir yaşayış məntəqəsində infrastruktur layihələri icra olunub, əhalinin elektrik enerjisinə, qaza, içməli və texniki suya olan tələbatı ödənilib. Eyni zamanda, Bakı şəhəri və ətraf qəsəbələrin inkişafı ilə bağlı icra olunan proqramlar çərçivəsində minlərlə layihələr icra olunub, qədim zamanlardan bəri ən aktual problem olan içməli su problemi, "Oğuz-Qəbələ-Bakı" xəttinin çəkilməsi və digər mənbələrdən istifadə etməklə yüz faiz həll olunub. Şəhər nəqliyyatının yenilənməsi, metro stansiyaların tikintisi, ekoloji problemlərin həlli, sürətlə yaşıllaşdırma işlərinin aparılması və sadalamadığım çoxsaylı layihələr bu proqramların icrasının nəticəsidir".

Millət vəkili əminliklə deyib ki, sayca dördüncü regional inkişaf proqramında nəzərdə tutulmuş bütün tədbirlər də vaxtlı vaxtında yerinə yetiriləcək, Azərbaycanın inkişafına öz töhfəsini verəcəkdir: "Buna qətiyyən şübhə ola bilməz. Ona görə ki, Prezident İlham Əliyev bütün fəaliyyəti dövründə, sözü ilə əməlinin üst-üstə düşdüyünü, gördüyü bütün işlərdə Azərbaycanın inkişafını, xalqın rifah halının, məişət şəraitinin yaxşılaşmasını təmin edir. Cəmiyyətin inkişafı, hərtərəfli düşünülmüş, sistemli şəkildə aparılır. Hər kəsə məlumdur ki, hər bir proqramın icrası milyardlarla maliyyə tələb edir. Bunun üçün güclü iqtisadi inkişaf olmalıdır. Xalqın xoşbəxtliyi ondadır ki, məhz sosial-iqtisadi inkişafı, ictimai-siyasi sabitliyi təmin etməklə, Prezident İlham Əliyev qətiyyət və inamla Azərbaycanı daha güclü dövlət kimi dünyaya təqdim edir. Hesab edirəm ki, srağagünkü müşavirədəki çıxışında Prezident, xalqın ürəyindən gələn və eşitmək istədiyi fikirləri səsləndirdi. Bu fikirlər birmənalı şəkildə, cəmiyyətin bütövləşməsinə, sosial ədalət prinsiplərinin bərqərar olmasına, son nəticədə Azərbaycan insanının özünü rahat, xoşbəxt hiss etməsinə xidmət edir".

**Ekspert Fuad Babayev** də hesab edir ki, keçən il ölkəmiz bütövlükdə uğurla inkişaf edib. Onun sözlərinə görə, bunu Azərbaycan Prezidenti İlham Əliyev regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda xüsusilə vurğulayıb. Ekspert deyib ki, dövlətimizin başçısı Azərbaycanın inkişaf, sabitlik yolu ilə getdiyini və bu sabitliyin xalqın iradəsi ilə təmin edildiyini bəyan edib: "Bu gün dövlətimizin başçısının apardığı siyasət xalq tərəfindən dəstəklənir. Bu siyasətin təməlində konkret işlər, real inkişaf, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən Azərbaycan hakimiyyətinə göstərilən etimad yüksək səviyyədədir. Möhkəm təməl üzərində bərqərar olan sabitliyin davamlılıq əmsalı da böyük olur. Məhz bu sabitlik keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulmasını şərtləndirən əsas amillərdəndir".

F.Babayev qeyd edib ki, Azərbaycan Prezidenti 16 il ərzində görülmüş işlərdən danışaraq Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsini tarixi qələbə kimi səciyyələndirib: "Prezident bu yolun böyük gəlir gətirməklə yanaşı, həm də beynəlxalq əməkdaşlığı genişləndirdiyini vurğuladı. İndi bu yolla onu tikməyə başlayanda nəzərdə tutulmayan yerlərdən də yüklər daşınır. Yəni, bu yol beynəlxalq əməkdaşlıq üçün çox önəmli infrastruktur layihəsinə çevrilib və Azərbaycan burada aparıcı ölkədir. Dövlət başçısı Dünya İqtisadi Forumu çərçivəsində Davos Forumu ilə Azərbaycan arasında Dördüncü Sənaye İnqilabı üzrə Bakıda regional mərkəzin yaradılması hadisəsinin ölkəmizin əhəmiyyətini, rolunu və bizə olan münasibəti əks etdirdiyini vurğuladı. Prezident Azərbaycanın dördüncü Sənaye İnqilabında lider olmasının labüdlüyünü qeyd etdi. Beləliklə, görülən işlər Azərbaycan əhalisində ölkəmizin işıqlı gələcəyinə inamı daha da möhkəmləndirir".

**Alpər İSMAYIL**